# PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ

UOT 159.9

**Səbinə Hikmət qızı Əlizadə**
*psixologiya üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*

## AİLƏDƏ GƏNCLƏRƏ GENDER BƏRABƏRLİYİNİN AŞILANMASINDA VALİDEYNLƏRİN ROLU

**Сабина Хикмет гызы Ализаде**
*доктор философии по психологии*
*Бакинский Государственный Университет*

## РОЛЬ РОДИТЕЛЕЙ В ПОВЫШЕНИИ ГЕНДЕРНОГО РАВЕНСТВА В СЕМЬЕ

**Sabina Hikmat Alizade**
*doctor of philosophy in psychology*
*Baku State University*

## ROLE OF PARENTS IN FOSTERING GENDER EQUALITY IN THE FAMILY

**Xülasə**. Məqalədə ailənin xüsusi əhəmiyyəti, cəmiyyətdəki gender bərabərliyi problemi və ailədə gənclərdə gender bərabərliyinin təmin olunmasında valideynlərin rolu əksini tapmışdır. Valideynlər gənclər arasında gender bərabərliyinin təbliğində xüsusi rol oynayırlar. Baba və ana ailənin əsas fiqurları olduğundan, aralarındakı inkişaf və mövcud münasibətlər uşaqların bu gününü və gələcəyini formalaşdırır.
***Açar sözlər:*** *ailə, ailədaxili münasibətlər, cəmiyyət, gender bərabərliyi, valideyn, uşaqlar*

**Резюме.** В статье отражена особая важность семьи, проблема гендерного равенства в обществе и роль родителей в воспитании гендерного равенства молодых людей в семье. Родители играют особую роль в воспитании гендерного равенства среди молодежи. Поскольку отец и мать являются главными фигурами в семье, отношения, которые сложились и существуют между ними, формируют настоящее и будущее детей.
***Ключевые слова:*** *семья, семейные отношения, общество, гендерное равенство, родитель, дети*

**Summary.** The article reflects the special importance of the family, the problem of gender equality in society and the role of parents in fostering gender equality in young people in the family. Parents play a special role in promoting gender equality among young people. Since the father and mother are the main figures in the family, the relationships that have developed and exist between them shape the present and future of the children.
***Key words:*** *family, family relationships, society, gender equality, parents, children*

Sinifli cəmiyyətin yaranması ilə ailə münasibətləri də yaranmışdır. Bu baxımdan da ailə cəmiyyətin yaranmasının mühüm təsisatlarından biridir. Bəzən ailəyə kiçik dövlət də deyilir.

Ailə üzvləri ümumi həyat, qarşılıqlı yardım, mənəvi və hüquqi məsuliyyətlə bağlı olan evlilik və ya qan münasibətlərinə, ər, arvad və uşaqlar arasındakı münasibətlərə söykənən cəmiyyətdəki ən kiçik bir birlikdir. O, cəmiyyətin sosial strukturunun əsas komponenti olub, cəmiyyətin inkişafında mühüm əhəmiyyət kəsb edir. Nikah ailənin hüquqi əsasıdır. Böyük

ingilis sosioloqlarından biri Entoni Giddensin klassik tərifinə görə, bir ailə "birbaşa qohumluq əlaqələri ilə bağlanan, yetkin üzvləri uşaq baxımı öhdəliyini götürən bir qrup insan" kimi başa düşülür. Bu tərifin kontekstində qohumluq münasibətləri nikahın bağlanmasından və ya fərdlər arasındakı qan münasibətlərinin nəticəsi olan münasibətlər hesab olunur.

T. Louson və C. Herrod lüğət-sorğu kitabçasında ailəni belə müəyyənləşdirirlər: ailə – "ümumi qəbul edilmiş anlayışda qan qohumluğu və ya nikah əlaqələri ilə bizim bağlandığımız bütün adamlardır" [1].

Ailə insan üçün ən vacib sosial təşkilatdır və bu tip bir qrupa mənsub olan şəxsin psixoloji və sosial inkişafında mühüm əhəmiyyətə malikdir.

V.R. Ratnikov "ailə" dedikdə "dəqiq müəyyən edilmiş maraqları və məqsədləri olan mini qrupu" başa düşür. Ailənin əsas məqsədi – qalib gəlmək, özünü qorumaq, ailə üzvlərinin əsas tələbatlarını ödəyə bilmək və nəslin davamını təmin etməkdir [2].

Hər bir sahədə olduğu kimi ailə daxilində də bir sıra problemlər mövcud olur. Hal-hazırda gündəmdə olan mühüm problemlərdən biri də gender bərabərliyidir. Son günlərdə artan qadın cinayətləri bu problem üçün əyani nümunədir.

Gender bərabərliyi- kişilərin və qadınların qanun qarşısında bərabər olmasını şərtləndirən bir təsbit prinsipidir. XX əsrin 60-cı illərindən etibarən dünyada, xüsusən də, Qərb ölkələrinin sosial elmlərində (antropologiya, psixologiya, fəlsəfə, tarix və s.) işlədilən "gender" anlayışı qadın probleminin, cəmiyyətdə qadın və kişi münasibətlərinin təhlili ilə əlaqələndirilir. Qadın və kişilərin sosial vəziyyətindəki fərqləri, onların hüquqlarının bərabər olmaması əsrlər boyu yanlış olaraq bioloji səbəblərlə izah edilmiş və gender bərabərliyinin yalnız qadınları dəstəklədiyi düşünülmüşdür. Halbuki, gender bərabərliyi - qadın və kişilər arasında bərabərliyə istinad edir və bir sıra məsələləri nəzərdə tutur. Məsələn, bərabər maddi rifah və imkanlar, qərarların qəbul edilməsi prosesində bərabərhüquqlu iştirak, resurslara və qazanclara bərabərhüquqlu şəkildə nəzarət və s.

Gender bərabərliyi dedikdə, heç də kişi və qadının eyni cür davranışı nəzərdə tutulmur. Sadəcə, insanın cinsindən- kişi və ya qadın doğulmasından asılı olmayaraq, bərabər hüquqa, eyni imkanlara malik olması önə çəkilir. Yəni, insanın qadın və ya kişi doğulması hər hansı məhdudiyyətə səbəb olmamalı, diskriminasiyasını və izolyasiyasını nəzərdə tutmamalıdır.

Gender - qadınların fəaliyyət proqramı olan Pekin Platformasında "cinsi xüsusiyyətləri nəzərə alan elm" kimi xarakterizə olunur. Belə ki, Pekin Bəyannaməsinin 3-cü Platformasında deyilir: "Bütün dünyada gender bərabərliyin nail olmaqla bağlı qadınların qarşısında qoyulan məsələlər ancaq kişilərlə tərəf-müqabillik əsasında həll oluna bilər" [3].

Uzun illər kişi ilə qadının rolları arasında aydın bir bölgü var idi. Kişi pul qazanırdı, qadın isə ev təsərrüfatına rəhbərlik edirdi. Hər cinsin kifayət qədər aydın geyim və davranış qaydaları vardı. Əhalinin yarısından çoxunu kişilər təşkil edirdi. Son onilliklərdə vəziyyət tarazlaşmaqdadır. Artıq cinsindən asılı olmayaraq hamı istədiyi bir işlə məşğul ola bilər. Qanun qadın hüquqlarını qoruyur və cinsiyyətə görə ayrı-seçkiliyi qadağan edir və bir çox qadınlar iqtisadiyyatda rəhbər vəzifələrə təyin olunurlar. Amma dünyanın hər yerində vəziyyət belə optimal deyil. Qadınlar hələ də davranışlarına görə qınaq obyekti olur, az qazanır, xarici görünüşlərinə görə daha çox mühakimə olunurlar və təcavüzdən əziyyət çəkirlər.

Ailə münasibətlərində başlıca, əslində, böyük hərflə yazılan davranış mədəniyyətidir. Ata-babalarımız qadına əl qaldırmağı, qadına hörmətsizlik etməyi şərəfsizlik saymışdır. Təcrübə göstərir ki, qadın ailədə yüksək dəyərləndiriləndə onun həm özünə, həm də həyata münasibəti dəyişir. "Müasir qadınların şəxsiyyət faktorları ilə qaynaqlanan köklü fəlsəfəsi-ailə, qadın, ər, uşaqlar... fəlsəfəsi var. Özünə hörmət qadının özünü qiymətləndirməsi, xüsusilə öz ləyaqətini dərk etməsi və qadın ləyaqəti prosedurları ilə dəyərləndirilməsi prosesidir. Qadın şəxsiyyətinin köklü parametrlərindən biridir" [4].

İsrail pedaqoqu Dalit Stauber təhsil sisteminin bu sahədəki rolu haqqında yazırdı: "Təhsil sistemi əhalinin bütün təbəqələri arasında bərabər şüurun yaranmasında çox vacib bir rola malikdir və lazımi dəyişikliyin aparılması və gücləndirilməsi üçün katalizator ola bilər. Təhsil, bərabərlik və təhsil sistemində aparıcı dəyərlər kimi hörmət edilən valideynlər fərqli-

liklərin azaldılması və qarşısının alınması üçün "dəyişiklik agenti" və səfir olacaqlar" [5].

Bütün insanlar öz məqsədlərinə çatmaq və cəmiyyətə inteqrasiya etmək üçün bərabər fürsətə layiqdirlər. Dünyadakı qadınların 40%-i gender bərabərliyinin təmin olunmadığı ölkələrdə yaşayırlar. Tədqiqatlara görə, dünyada bu boşluqları azaltmaq üçün davam edən səylərə baxmayaraq, 2.8 milyard qadın gender bərabərliyinin səviyyəsinin "aşağı" və ya "çox aşağı" olaraq təyin olunduğu ölkələrdə yaşayır.

Beynəlxalq Əmək Təşkilatı, 2000-ci ildə nəşr olunan İşçi Qadın Hüquqları və Gender Bərabərliyi prinsiplərinə dair məqaləsinin 48-ci səhifəsində qeyd etdiyi kimi: "Gender bərabərliyi kişilər və qadınlar arasındakı bərabərlikdir və hamımızın insan olduğumuz konsepsiyasına zəmanət verir. Kişilər və qadınlar fərdi imkanlarını inkişaf etdirmək və stereotiplər tərəfindən məhdudlaşdırılmadan qərar vermək üçün sərbəstdir.

Gender bərabərliyi o deməkdir ki, qadın və kişinin fərqli davranışları, istəkləri və ehtiyacları ən yüksək bərabərliklə nəzərə alınmalı, qiymətləndirilməli və üstünlük verilməlidir. Bu o demək deyil ki, kişi və qadın eyni olmalıdır, lakin hüquqları, vəzifələri və imkanları cinsindən asılı deyildir. Cinslər arasındakı bərabərlik kişilərlə qadınlar arasında xüsusi ehtiyaclarına görə ədalətli rəftar deməkdir.

Qlobal miqyasda gender bərabərliyi qadın və qızlara qarşı cinsi alver, qadın öldürmə, müharibələrdəki cinsi zorakılıq və digər təzyiq metodları kimi zərərli əməlləri pozmağı tələb edir.

Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu izah edir: "Qadınlara öz hüquqlarını verməyə razılıq verilməsinə baxmayaraq, qadınlar hələ də yoxsulluq və savadsızlıqdan kişilərə nisbətən daha həssasdırlar, sahiblik, təhsil və işləmə şansları daha azdır. Siyasətdə kişilərə nisbətən daha az aktivdirlər və məişət zorakılığının qurbanı olma ehtimalı daha yüksəkdir [6].

Gender – qadın və kişinin cəmiyyətdəki sosial rolunu və vəziyyətini təyin edən model kimi cəmiyyət tərəfindən qəbul edilir. Tədqiqatlar göstərir ki, uşaqların informasiyanı hər iki gender nümayəndələrindən almasına baxmayaraq, onlar davranışda məhz öz gender faktorlarına müvafiq gələn modelləri qəbul etməyə meyllidirlər.

Əksər ölkələrdə qızlar vaxtlarının çoxunu evdə valideynlərinə kömək etməyə və kiçik uşaqlara baxmağa, oğlanlar isə yaşlıların nəzarəti olmadan oynamağa sərf edirlər (Edvards).

Gənc oğlan və qızlarla keçirilən anket sorğusunda qoyulan iki sual qadın-kişi münasibətlərini, onların ailədə rollarını aydınlaşdırmağa kömək etmişdir. "Sizin fikrinizcə, kişi hansı keyfiyyətlərə malik olmalıdır?" və "Sizin fikrinizcə, qadın hansı keyfiyyətlərə malik olmalıdır?" suallarına gənclər cavab verməli idilər.

Qızlar qadınlarda yaxşı ana, yerini bilən, anlayışlı, insanlarla düzgün münasibət qura bilən, uşaqların tərbiyəsinə fikir verən, tərbiyəli, əxlaqlı, güzəştə getməyi bacaran və s. kimi keyfiyyətləri, oğlanlar isə qadınlarda qaydalara layiqincə əməl edən, söz götürə bilən, mentaliteti gözləyən və s. kimi keyfiyyətləri qeyd edirlər [7].

Qızlar kişilərdə ciddi, sözünün üstündə duran, yalan danışmayan, sadiq olan, ağıllı, iş bacaran, ailəni dolandıran, mərd, qadınını sevən, ailəsinin arxasında durmağı bacaran, məsuliyyətli, səxavətli və s. kimi keyfiyyətlərin, oğlanlar isə kişilərdə ailədə sözü keçən, səlahiyyətli, məntiqli, ailəsini qoruyan, ailəsinin ehtiyaclarını təmin edən və s. kimi keyfiyyətlərin olmasını göstərirlər.

Verilən cavablardan aydın olur ki, qızlar qarşı tərəfi hər cəhətdən təmin edən olmağı, oğlanlar isə qadınlar üzərində hökmran olmağı düşünürlər. Qızların kişilərlə bağlı fikirlərində bir yumşaqlıq, həlimlik var, oğlanların qadınlarla bağlı fikirlərində isə bir amiranəlik, hökmlülük var. Bu cür münasibətlərdə isə bərabərhüquqluluq, qarşılıqlı anlayış, kömək və əməkdaşlıq nəzərdə tutulmayıb və bu da münasibətlərdə gərginliyin yaranmasına zəmin yaradan bir düşüncə tərzidir.

Gender bərabərliyi ilə bağlı görkəmli insanların dəyərli fikirləri vardır. O insanlardan biri də Hindistan Azadlıq Hərəkatının siyasi və ruhani lideri Mahatma Qandi olmuşdur. Mahatma Qandi deyirdi: "Qadını "zəif cins" olaraq görmək bir böhtan və kişilərin qadınlara qarşı etdiyi haqsızlıqdır. Əgər güc dedikdə kobud qüvvət nəzərdə tutulursa, əlbəttə qadınlar kişilərdən daha az vəhşidirlər, ancaq güc əgər əxlaqi bir gücdürsə, o zaman qadınlar kişilərdən düşünə bilməyəcəyiniz qədər üstündür. Qadınlar bizdən daha fədakar, daha cəfakar, daha cəsur

insanlar deyilmi? Qadınlar olmadan kişilər ola bilərmi?'"

Ailədə gənclərə gender bərabərliyinin aşılanması valideynlərin vəzifələrindən biridir. İlk öncə valideynlərin hər biri ailədə gənclərə nümunə olmalıdırlar. Onlar övladlarına öyüd-nəsihət verdikləri mövzuları öz davranışlarında da əks etdirməlidirlər. Əgər ailədə valideynlər mehribandırlarsa, deməli, uşaqlar da mehribandırlar. Ailədə ata və ana əsas sima olduqları üçün onlar arasında yaranmış və mövcud olan münasibətlər uşaqların bu gününü və gələcəyini formalaşdırır. Gender bərabərliyinin aşılanmasında da valideynlərin ilk vəzifəsi buna özlərinin riayət etmələridir. Ümumiyyətlə, ailədə ana və ata arasında qarşılıqlı hörmət, sevgi, qayğı bir sözlə, gender bərabərliyi mövcuddursa, o ailənin uşaqları artıq gender bərabərliyi sahəsində formalaşmış sayılır.

Bəzən ailədə qız və oğlan uşaqlarına fərq qoyulur. Bəzi ailələrdə oğlanlar qızlardan, bəzilərində isə qızlar oğlanlardan daha üstün tutulur. Bununla da, erkən yaşlardan uşaqlara gender bərabərsizliyi aşılanır və gələcəyin uğursuz ailələrinə sahib insanlar yetişdirilir. Əgər buna son qoyulmasa, ailələr nəsildən-nəslə birbirinə miras olaraq xoşbəxtlik deyil də, bədbəxtlik qoya bilərlər.

Ailədə gənclərə gender bərabərliyinin aşılanmasında valideynlərin iştirakı çox mühümdür. Valideynlərin hər iki üzvü öz üzərilərinə düşən vəzifələri vaxtı-vaxtında yerinə yetirərək, məsuliyyət hissi keçirərək nümunə ola bilərlər.

Valideynlərin övladları ilə ünsiyyət qurma tərzi, uşaqların cinsinə görə fərqlidir, valideynlər duyğularını ifadə etməyə və emosional sözləri oğlanlardan daha çox qızlara qarşı istifadə etməyə daha çox hazırdırlar. Həm də, hər iki uşaq çətinliklə qarşılaşdıqda, qızlar daxili duyğu ifadəsinə və düzəlişə əsaslanaraq problemləri həll etməyə təşviq edilərkən, oğlanlar xarici varlıq problemləri ilə məşğul olmağa təşviq olunurlar.

Ailədə valideynlərin hər ikisi də istər tərbiyədə, istərsə də gender bərabərliyinin aşılanmasında mühüm rol oynayırlar. Ona görə də onlardan hər hansısa biri olmadıqda müəyyən boşluqlar yaranır. Məsələn, atanın olmadığı ailələrdə oğlanlarda kişi xüsusiyyətləri daha yavaş inkişaf edir. Atadan məhrum olan oğlanlar tam ailələrdən olan oğlanlara nisbətən daha çox asılı və aqressivdirlər. Kişi cinsi rollarını mənimsəmək onlar üçün daha çətindir, buna görə tez-tez kobudluq və sərtlik nümayiş etdirərək öz kişiliklərini hipertrofiya edirlər.

Valideynlər oğlanların müstəqil olmamalarını qınamağa meylli olsalar da, qızların başqalarına bağlı olmasına və hətta bunu qəbul etməsinə icazə verirlər. Nəticədə, oğlanlar özlərinə hörmət qazanmaq üçün öz nailiyyətlərinə güvənmə prinsipini öyrənirlər, qızların özünə hörmət etməsi başqalarının onlara necə münasibət göstərməsindən asılıdır. Buna görə də hal-hazırda ailələrdə müəyyən problemlər yaranır. Kişilər müstəqil davranaraq, özünə inamlı şəkildə səhvlər edirlər, qadınlar isə haqlı olduqları halda başqaları mənfi münasibət göstərdiyi üçün, daim qınanma təhlükələri olduğu üçün öz doğrularından imtina edirlər. Müəyyən müddətdən sonra hər iki tərəf peşman olur.

Atasının davranışında oğul, öz cinsi rolunun bir nümunəsini, anasının timsalında- gələcəyini, seçdiyi birinin prototipini tapır. Valideyn münasibətləri onun üçün gender münasibətləri modeli kimi xidmət edir. Eyni ifadə qız övladı haqqında da söylənə bilər: ana onun üçün bir davranış modeli kimi xidmət edir, ata gələcəkdə seçilənin prototipidir. Məhz buna görə də valideynlər prototip olaraq öz övladlarının xoşbəxtliyi üçün düzgün addımlar ataraq canlı nümunə olmalıdırlar.

**Problemin aktuallığı.** Gender bərabərliyi istər ötən dövrlərdə, istərsə də müasir dövrdə əhəmiyyət daşıyan aktual problem olmuşdur. Buna görə də gender bərabərliyinin aşılanması valideynlərin mühüm vəzifəsinə çevrilmişdir.

**Problemin elmi yeniliyi.** Gender bərabərliyi və ailədaxili münasibətlər geniş təhlil olunmuş və münasibətlər sferasında valideyn-övlad münasibəti, valideynlərin rolu məsələləri sistemli şəkildə araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Gender bərabərliyi və ailə mövzuları ilə bağlı tədqiqatlarda, ali məktəb tələbələrinə mühazirələr zamanı, kurslarda seminarların təşkilində istifadə etmək kontekstində əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. Лоусон, Т.. Социология. А-Я: Сл.-спр / Пер. с англ. К.С. Ткаченко / Т. Лоусон, Д. Гэррод. -М., - 2000.

2. Конфликтология / Под ред. В.П. Ратникова. -М., - 2001.

3. Abbasov, Ə. Genderə giriş (Cəmiyyətdə cinslərin sosial rolları və qarşılıqlı münasibəti problemləri) / Ə. Abbasov, R. Mirzəzadə. -Bakı, - 2004. -s. 9

4. Əlizadə Ə.Ə. Qadın psixologiyası / Ə.Ə. Əlizadə. -Bakı, - 2015.

5.https://pop.education.gov.il/tchumey_daat/hinuch-hevrati/chativat-beynayim/noseem_nilmadim/-shivion-ben-minim/

6.https://ar.wikipedia.org/wiki/%D9%85%D8%B3%D8%A7%D9%88%D8%A7%D8%A9_%D8%A8%D9%8A%D9%86_%D8%A7%D9%84%D8%AC%D9%86%D8%B3%D9%8A%D9%86

7.https://www.bildirchin.az/qadin-v%C9%99-kisi-b%C9%99rab%C9%99rliyi-haqqinda-m%C9%99shurlarin-fikirl%C9%99ri/

**E-mail:** sebine.elizade.1996@bk.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **R.L. Hüseynzadə,**
*ped.ü.elm.dok., dos*. **E.Ə. Mollayeva**

**Redaksiyaya daxil olub:** 10.06.2021